# Torpaqşünaslıq və Aqrokimya İnstitutunda elmi-praktiki konfrans





**İyulun 10-da Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutunda "Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının torpaq və su resursları: problemlər və perspektivlər" mövzusunda elmi-praktiki konfrans keçirildi. İki gün davam edəcək tədbirin əsas məqsədi işğaldan azad edilmiş ərazilərin torpaq və su ehtiyatlarının öyrənilməsi, qorunması və səmərəli istifadəsi ilə bağlı problemlərin elmi əsaslarla müzakirəsi, perspektiv istiqamətlərin müəyyənləşdirilməsidir.**

Konfrans Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutunun nəzdində fəaliyyət göstərən Torpaq Muzeyinin yenidənqurmadan sonra açılışı ilə başladı. Tədbirin əvvəlində Dövlət Himni səsləndirildi, Vətən uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anıldı.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək konfransın aktual və strateji əhəmiyyətini vurğuladı. O, işğaldan azad edilmiş ərazilərdə torpaq və su ehtiyatlarının elmi əsaslarla öyrənilməsinin və qiymətləndirilməsinin ölkəmizin gələcək inkişafında mühüm rol oynadığını bildirdi. Akademik Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının böyük potensiala malik olduğunu qeyd etdi. Torpaqşünaslıq və Aqrokimya İnstitutunun uzun illər ərzində formalaşdırdığı elmi baza və təcrübənin yenidən qurulan ərazilərin inkişafına mühüm töhfə verəcəyini vurğuladı.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Elmi müəssisələrlə iş şöbəsinin müdiri Mübariz Hacıyev hazırda Azərbaycanın iqtisadi rayonlarında yenidənqurma işlərinin aparıldığını, Qarabağ və Şərqi Zəngəzurun iqtisadi rayonlar arasında xüsusi yer tutduğunu bildirdi. O vurğuladı ki, elmi ictimaiyyətin qarşısında dayanan əsas vəzifə bu rayonlarda genişmiqyaslı elmi-tədqiqat işlərinin aparılmasıdır.

AMEA-nın müxbir üzvü, professor və institutun baş direktoru Əlövsət Quliyev elm ocağının 80 illik fəaliyyətinə nəzər salaraq nailiyyətlərdən, strateji əhəmiyyət daşıyan tədqiqat istiqamətlərindən danışdı, işğaldan azad olunan ərazilərdə torpaq və su ehtiyatlarının tədqiq edilməsi sahəsində institutun aparıcı qüvvə olduğunu bildirdi. O, həmçinin beynəlxalq elmi əlaqələrdən, iqlim dəyişmələrinin torpaq sistemlərinə təsirini araşdıran layihələrdən və laboratoriya bazasının gücləndirilməsindən bəhs etdi. Vurğuladı ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında torpaq və su ehtiyatlarının tədqiqi əsas prioritetlərdəndir.

Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynova Torpaq Muzeyinin yaradılması və burada nümunələrin toplanması istiqamətində görülən işləri yüksək qiymətləndirdi və torpaqşünaslıq elminin inkişafında görkəmli alimlərin rolunu qeyd etdi.



Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov çıxışında institutun Azərbaycan torpaqlarının meliorasiyası və xəritələşdirilməsi sahəsindəki nailiyyətlərini xatırlatdı. O, institutun torpaq təsnifatlarının metodikasının hazırlanması, torpaqların deqradasiyasına qarşı mübarizə və digər sahələrdə mühüm xidmətlərini xüsusi vurğuladı. Çıxışının sonunda Anar Cəfərov institutun 80 illik yubiley münasibətilə xüsusi hazırlanmış təşəkkür plaketini direktor Əlövsət Quliyevə təqdim etdi.

Konfransda AMEA-nın müxbir üzvü, aqrar elmlər doktoru Amin İsmayılov "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının torpaq ehtiyatlarından səmərəli istifadənin elmi əsasları" mövzusunda danışdı. Onlayn formatda çıxış edən aqrar elmlər doktoru, professor Amin Babayev isə "Qarabağda orqanik (ekoloji) kənd təsərrüfatının inkişaf etdirilməsinin aqroekoloji aspektləri" mövzusunu məruzə etdi.

Konfransda həmçinin SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri Ruhəngiz Heydərova, Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru, akademik e.ü.f.d., dosent Faiq Xudayev və Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev və başqa qonaqlar çıxış etdilər.

Konfransda həmçinin, "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Torpaqşünaslıq və Aqrokimya İnstitutu - 80 il" adlı kitabın təqdimatı oldu.

Günün ikinci yarısında bölmə iclasları çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında torpaq ehtiyatlarının səmərəli istifadəsi, su qıtlığı şəraitində alternativ mənbələrin axtarışı, iqlim dəyişmələrinin təsiri və digər mövzulara toxunuldu. Konfrans həm oflayn, həm də onlayn formatda keçirildi. Tədbirin sonunda sual-cavab əsasında fikir mübadilələri aparıldı, iştirakçılar regionun aqroekoloji inkişafı üçün elmi əsaslı yanaşmaların önəmini vurğuladılar. Elmi nəticələrin gələcək tədqiqatlara və əməkdaşlığa töhfə verəcəyi qeyd olundu.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**